**İdxal olunan dəniz duzu məhsulunda uyğunsuzluğun aşkarlanmasına dair məlumat**

**(17 sentyabr 2026)**

"PTP AZEL" MMC tərəfindən Yaponiyadan idxal olunan “Aranami Samurai Salt” əmtəə nişanlı ədviyyatlı dəniz duzu məhsulunda uyğunsuzluq aşkarlanıb.

Nəzarət tədbirləri çərçivəsində  Qida Təhlükəsizliyi Agentliyi tərəfindən məhsul partiyasından götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində yodun miqdarının normadan aşağı olduğu müəyyən edilib.

Bununla əlaqədar, qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb, ümumi çəkisi 22,6 kq istehlaka yararsız məhsul məhv edilib.